# “Şahdağ”da jurnalistlərin gömrük təlimi

**❒ Sentyabrın 25-dən 29-dək ölkənin kütləvi informasiya vasitələrinin bir qrup əməkdaşı üçün Qusar rayonu ərazisindəki “Şahdağ” turizm-istirahət kompleksində “Gömrük islahatları və modernləşdirmə” mövzusunda təlim keçirildi.**



Təlimin açılışında onun hədəflərini açıqlayan Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru İqbal Babayev bildirdi ki, ölkənin gömrük orqanlarında gerçəkləşdirilən islahatların uğuru bir çox cəhətdən əhalinin geniş dairəsinin və iş adamlarının bu sahədə baş verən dəyişikliklərin məzmun və mahiyyətindən zamanında xəbərdar olmasından asılıdır. Media ilə əməkdaşlığa həmişə önəm vermiş komitənin yeni rəhbərliyi KİV-in aparılan islahatlara informasiya dəstəyini artırmaq üçün bu mövzunu işıqlandıran jurnalistlər üçün 5 günlük geniş, işgüzar təlim təşkil etmişdir.

İqbal Babayev daha sonra bildirdi ki, ölkədə aparılan bütün islahatların fonunda gömrük sahəsində davam edən yeniləşmənin və modernləşmənin də ideoloqu Prezident İlham Əliyevdir. Məqsəd ölkə vətəndaşlarının, biznes subyektlərinin məmnunluğunu təmin etmək, beynəlxalq ticarəti asan və sürətli həyata keçirməkdir. Məqsəd çevik idarəetmə sistemi və beynəlxalq standartlara uyğun gömrük xidməti formalaşdırmaqdır. Hazırda dünya gömrüyünün inkişafı “gömrük–biznes”, “gömrük–hökumət” və “gömrük–gömrük” əməkdaşlığı üzərində gerçəkləşdirilir. Azərbaycanın gömrük xidməti isə bunların sırasında daha birini–yerli tələbatdan irəli gələn “gömrük–media” əməkdaşlığını gətirmək istəyir.

Komitə sədrinin müavini ciddi hazırlıq işləri aparılmış təlimə ən səriştəli, media ilə əməkdaşlıq təcrübəsi olan səlahiyyətli gömrük işçilərinin cəlb edildiyini söylədi, əldə ediləcək biliklərin gömrük mövzusunun KİV-də dəqiq və dolğun əks etdirilməsində gərəkli olacağına əminliyini ifadə etdi.

Təlimə uğurlar arzulayan Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu, Azərbaycan Mətbuat Şurası sədrinin müavini Müşfiq Ələsgərli, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, “Bakı-Xəbər”qəzetinin baş redaktoru Aydın Quliyev və ölkənin digər mərkəzi media qurumlarının rəhbərləri təşkil olunan gömrük maarifləndirməsi məşğələlərinin jurnalistlərin peşəkarlığının yüksəldilməsinə töhfə olmaqla yanaşı, geniş auditoriyanın daim diqqət yetirdiyi bir mövzunun operativ və obyektiv işıqlandırılmasına da kömək edəcəyini vurğuladılar, hər iki tərəf üçün səmərəli əməkdaşlıq yollarından söz açdılar.

Ölkənin 20-dən artıq media qurumunun nümayəndəsinin iştirak etdiyi təlimin məşğələlərində və təcrübi tapşırıqlarda Dövlət Gömrük Komitəsinin mütəxəssisləri aparılan islahatlar, onların mahiyyəti, gömrük nəzarəti, ticarətin asanlaşdırılması, informasiya texnologiyalarının tətbiqi, fiskal siyasət, gömrük hüquqpozmaları və digər mövzularda yenilikləri jurnalistlərin diqqətinə çatdırdılar. Şərh olunan məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı, səslənən suallar ətraflı cavablandırıldı.

Təlilimin ilk günlərində Dövlət Gömrük Komitəsinin məsul əməkdaşları təqdimatlarla çıxış edərək malların gömrük ərazisinə gətirilməsi və aparılması, nəqliyyat vasitələrinin və şəxslərin gömrük ərazisinə daxil olması və bu ərazidən yola düşməsi, “Yaşıl dəhliz” və digər buraxılış sistemləri, ticarətin asanlaşdırılması üzrə gömrük nəzarətində yeniliklər, sərnişinlər üçün nəzərdə tutulan “Yaşıl dəhliz” və “Qırmızı dəhliz” buraxılış sistemləri, gömrük orqanlarının başqa şəxslərlə münasibətləri, gömrük təmsilçiliyi, gömrük daşıyıcısı, səlahiyyətli iqtisadi operator institutu kimi mövzuları ətraflı şərh etdilər.

Sonrakı günlərdə jurnalistlər gömrük işinin təşkili sahəsində risklərin müəyyən edilməsi, gömrük statistikası, media-gömrük münasibətləri ilə bağlı gömrük yenilikləri barədə məlumatlandırıldılar. Komitənin müvafiq baş idarələrinin rəhbərləri və əməkdaşları gömrük-biznes münasibətləri, bu sahədə mövcud problemlər və onların aradan qaldırılması yolları, elektron gömrük fəlsəfəsi ilə bağlı Azərbaycanda görülən işlər və dünya praktikası , TRS sərhədkeçmə vaxtının ölçülməsi ilə bağlı layihə, gömrük sahəsində hüquqpozmalara qarşı mübarizə istiqamətində həyata keçirilən tədbirlər, gömrük rüsumları və növləri, gömrük orqanları tərəfindən alınan vergilər, gömrük orqanlarının həyata keçirdiyi fiskal siyasət kimi mövzulara aydınlıq gətirdilər.

Təlim iştirakçılarının Dövlət Gömrük Komitəsi Şimal Ərazi Baş Gömrük İdarəsinin Rusiya Federasiyası ilə sərhəddə yerləşən “Samur” gömrük postunun fəaliyyəti ilə tanışlıq səfəri isə jurnalistlərin söhbət açılan mövzularla bağlı gömrük yeniliklərini öz gözləri ilə görməsi baxımından maraqlı oldu. Media qurumlarının təmsilçiləri yeni innovasiyaların Azərbaycan gömrüyündə uğurla tətbiq edildiyinə, aparılan islahatların ciddi dəyişikliklər yaratdığına bir daha əmin oldular.

Sonuncu gün əvvəlcə iştirakçıların əldə etdikləri biliklərin qiymətləndirilməsi aparıldı. Gömrük işinin media üçün maraqlı məsələləri barədə tərtib olunmuş 30 sualın əksəriyyətinin hamılıqla düzgün cavablandırılması təlimin səmərəli qurulduğunun və jurnalistlərin önəmli mövzularla bağlı yenilikləri həvəslə mənimsədiklərinin göstəricisi oldu.

Bağlanış mərasimində Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-mayoru İsmayıl Hüseynov qeyd etdi ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən davamlı iqtisadi inkişaf strategiyasının nəticəsi olaraq digər dövlət qurumları kimi, gömrük orqanları da önəmli dövlət təsisatlarından birinə çevrilib. Sıralarında minlərlə əməkdaşı birləşdirən Azərbaycan gömrük xidməti 26 il əvvəl yaranmasına baxmayaraq, artıq ölkəmizin iqtisadi təhlükəsizliyinin təmin olunmasında, biznes mühitinin yaxşılaşdırılması, daxili bazarın qorunması və beynəlxalq ticarətin asan və sürətli şəkildə həyata keçirilməsi istiqamətində mühüm nailiyyətlər əldə edib.

Həyata keçirilən islahatların, eyni zamanda, ölkəmizdə gömrük işinin təşkilində də yeni fəlsəfəni, yeni yanaşmaları ortaya qoyduğunu qeyd edən İsmayıl Hüseynov aparılan struktur və kadr islahatlarının gömrük işinin müasir standartlara cavab verəcək şəkildə qurulmasına münbit şərait yaratdığını vurğuladı. O bildirdi ki, artıq gömrük orqanları nəzarət deyil, daha çox xidmət fəlsəfəsi ilə fəaliyyət göstərir. Məqsəd daxili istehsalı qorumaq, ölkəmizin ixrac potensialını artırmaq, Azərbaycan brendi altında istehsal olunan malların xarici bazarlara çıxışını təmin etmək, beynəlxalq ticarət dəhlizlərinin kəsişdiyi coğrafi məkanda yerləşən ölkəmizin tranzit qabiliyyətini yüksəltməklə iqtisadi qüdrətimizi daha da inkişaf etdirməkdir.

İsmayıl Hüseynov daha sonra qeyd etdi ki, gömrük islahatlarının önəmli hədəflərindən biri də ölkə vətəndaşlarının, xüsusilə iş adamlarının məmnuniyyətinə nail olmaqdır. Bu məqsədə çatmaq üçün həyata keçirilən, tədbirlərdən biri də ictimaiyyətlə, xüsusilə media qurumları ilə səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasıdır. Gömrük sferasında şəffaflığın təmin olunmasında, rüşvət və korrupsiya hallarının aradan qaldırılmasında ictimai nəzarətin rolu danılmazdır. Media qurumları və jurnalistlər gömrük orqanlarının fəaliyyətinə ən yüksək səviyyədə informasiya-maarifləndirici dəstək verirlər. Gömrük Komitəsi isə bundan sonra da kütləvi informasiya vasitələri ilə sıx və işgüzar münasibətlər quracaq və media qurumlarının da gömrük orqanlarına daim dəstək göstərəcəyinə əmindir.

Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi Natiq Axundov təlimdə iştirak edən media nümayəndələrinə təşəkkürünü bildirdi, bu tədbirin qarşılıqlı faydalı əməkdaşlığın daha peşəkar və səmərəli davam edəcəyinə şərait yaradacağını diqqətə çatdırdı.

Sonda təlimin qiymətləndirilməsi prosesində fərqlənən jurnalistlər mükafatlandırıldı, iştirakçılara sertifikatlar və xatirə hədiyyələri təqdim olundu.

***Tahir AYDINOĞLU,***
***“Xalq qəzeti”***